

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 105 (23.016)

*5 iyun 2018-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də İran İslam Respublikası Prezidenti Aparatının rəhbəri Mahmud Vaezini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edərək, Prezident Həsən Ruhaninin Azərbaycana son səfərini məmnunluqla xatırlayıb və səfərin çox uğurlu olduğunu, əldə edilmiş razılaşmalar və imzalanmış sənədlərin böyük önəm daşıdığını deyib. Bu səfərdən keçən dövr ərzində əlaqələrimizin yeni dinamika aldığını qeyd edən Prezident İlham Əliyev uzun illər həll olunmamış məsələlərin birgə səylərlə öz həllini tapdığını bildirib.

Mahmud Vaezi qeyd edib ki, İran-Azərbaycan ikitərəfli münasibətləri müxtəlif sahələrdə uğurla inkişaf edir. Azərbaycan ilə İran arasında keçid məntəqəsi 24 saatlıq iş rejimində çalışır, Azərbaycanda avtomobil istehsalı zavodu fəaliyyətə başlayıb, Azərbaycandan İrana enerji ixracı həyata keçirilir. Nəqliyyat sahəsində əməkdaşlıq durmadan genişlənir, Astara-Astara dəmir yolunun tikintisi uğurla başa çatıb, yük terminallarının inşası davam edir.

Söhbət zamanı humanitar-mədəni əlaqələrin və turizm sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olunub.



# Naxçıvan şəhərdaxili avtomobil yolları yenidən qurulacaq






Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Heydər Əliyev siyasəti bu gün Azərbaycanda yaşayır, davam edir, əbədi yaşamalıdır və yaşayacaqdır. Biz bu siyasətin gözəl nəticələrini ölkəmizin hər bir yerində görürük, o cümlədən Naxçıvan Muxtar Respublikasında".***

Ulu öndərin siyasi xəttinin uğurla davam etdirilməsi Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafını təmin etmişdir. Muxtar respublikada iqtisadi inkişafın başlıca şərtlərindən və sosialyönümlü tədbirlərdən biri də müasir yol infrastrukturunun yaradılmasıdır. Naxçıvan şəhərdaxili avtomobil yollarının yenidən qurulması da bu sahədə görülən işlərin davamıdır.

İyunun 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərdaxili avtomobil yollarının yenidən qurulması layihəsinə baxmışdır.

Məlumat verilmişdir ki, layihə Naxçıvan şəhərinin Heydər Əliyev prospektini, o cümlədən 20 küçə və məhəlləni əhatə edəcəkdir. Yenidən qurulacaq avtomobil yollarının ümumi uzunluğu 25 kilometrdir. Dörd və altı hərəkət zolağından ibarət şəhərdaxili yollara keyfiyyətli və dayanıqlı yeni asfalt örtük salınacaq, piyadaların və nəqliyyat vasitələrinin rahat və təhlükəsiz hərəkəti təmin ediləcəkdir. Eyni zamanda yenidənqurma işləri aparılarkən yol-tikinti qaydaları diqqətdə saxlanılacaq, yollarda lazım olan bütün infrastruktur yaradılacaq, yol nişanları yenilənəcəkdir.

Ali Məclisin Sədri tikinti işlərinə başlanması, mühəndis-texniki tələblərə əməl olunması və keyfiyyətə diqqət yetirilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Sanjay Rana: "Muxtar respublikada sənaye, kənd təsərrüfatı, özəl sektor sürətlə inkişaf edir"

*Xəbər verdiyimiz kimi, Hindistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Sanjay Rana mayın 31-də Naxçıvan Muxtar Respublikasına səfər edib. İyunun 3-dək davam edən səfər çərçivəsində diplomat muxtar respublikanın təhsil, mədəniyyət müəssisələri, tarixi abidələri və gəzməli-görməli yerləri ilə tanış olub.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 11 fevral tarixli Sərəncamına əsasən bərpa olunan "Əlincəqala" tarixi abidəsi və muzeyi səfirdə böyük maraq doğurub. Burada qonağa məlumat verilib ki, Əlincəqalanın iki min ildən çox tarixi var. Qala I-VI əsrlərdə yerli hökmdarların əsas iqamətgahlarından biri olub, qala-şəhər kimi formalaşıb. 14 il Əmir Teymurun qoşunlarına müqavimət göstərib. "Əlincəqala" tarixi abidəsindəki qala divarları, bürc və giriş qapıları, qədim yaşayış evləri, təsərrüfat binaları, su hovuzları və təndirlər, səngər və mühafizə yerləri ilkin forması saxlanılaraq bərpa edilib. Qala divarları və bürclər əzəmətli görkəmi ilə Naxçıvan memarlıq məktəbinin qədim izlərini özündə yaşadır.

Culfa rayonunun ərazisində yerləşən Gülüstan türbəsilə tanışlıq zamanı Hindistanın ölkəmizdəki səfirinə məlumat verilib ki, Naxçıvan





Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 7 oktyabr tarixli Sərəncamına əsasən dünya əhəmiyyətli Gülüstan türbəsi elmi və tarixi əsaslarla bərpa olunub. Türbənin bərpa edilməsi xalqımızın çoxəsrlik tarixi-mədəni irsinin gələcək nəsillərə çatdırılması və tanıdılması baxımından mühüm əhəmiyyətə malikdir. XII əsrə aid olan Gülüstan türbəsi ölkəmizin tarixi abidələri içərisində memarlıq həllinə və həndəsi ornamentlərinə görə seçilir. Buna görə də türbənin bərpası zamanı hər bir detala xüsusi diqqət yetirilib, abidənin orijinallığı qorunub saxlanılıb. Beləliklə, Gülüstan türbəsinə ikinci həyat verilib.

"Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi ilə tanışlıq zamanı Əshabi-Kəhfin sirli tarixi barədə öyrəndikləri səfirin hədsiz marağına səbəb olub.

Sanjay Rana Batabat iqlim-kurort zonasında da olub. Burada bildirilib ki, dəniz səviyyəsindən 2450 metr yüksəklikdə olan Batabat yaylağı ərazisindəki 3139 hektar sahəni əhatə edən Şahbuz Dövlət Təbiət Qoruğunda hazırda 32 növ vəhşi heyvan, 127 növ quş, 1580 növ bitki qorunur. Səfir Batabat yaylağındakı göllərlə yaxından maraqlanıb. Diqqətə çatdırılıb ki, bu hidroloji abidələr eyniadlı 3 su hövzəsindən ibarətdir. Ümumi su tutumu, təqribən, 3 milyon kubmetrdir. Məşhur Üzən ada, Zorbulaq da burada yerləşir.

Ağbulaq İstirahət Mərkəzi ölkəmizdə kənd turizminin tətbiqi sahəsində həyata keçirilən ilkin tədbirlərin nəticəsi kimi diqqəti cəlb edən bu istirahət mərkəzi qonaqda xoş təəssürat yaradıb. Bildirilib ki, 2013-cü ildə istifadəyə verilib. 3,5 hektar ərazisi olan mərkəz 2 yaşayış korpusundan və yeməkxana binasından ibarətdir. İkimərtəbəli və 56 yerlik korpuslarda, ümumilikdə, 38 otaq mövcuddur.

Bununla da, Hindistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Sanjay Rananın Naxçıvan Muxtar Respublikasına səfəri başa çatıb.

Muxtar respublikadan xoş ovqatla ayrılan səfir Sanjay Rana "Şərq qapısı" qəzetinə müsahibəsində səfərinin məqsədi və Naxçıvan təəssüratları barədə danışıb. Diplomat deyib: – Səfərimin əsas məqsədi əlaqələrimizi inkişaf etdirmək, mədəni, təhsil, iqtisadi sahələrdə əlaqələrin stimullaşdırılmasına şərait yaratmaqdır. Biz bütün sahələrdə qarşılıqlı əlaqələrin inkişafını istəyirik. Muxtar respublikaya səfərim zamanı bir sıra yüksək səviyyəli görüşlər keçirdim. Bu görüşlərdə ikitərəfli əməkdaşlığı inkişaf etdirmək haqqında müzakirələr apardıq. İkitərəfli əlaqələrin inkişaf etdirilməsi üçün əlimdən gələni əsirgəməyəcəyəm.

"Muxtar respublikada sənaye, kənd təsərrüfatı, özəl sektor sürətlə inkişaf edir. Bir sözlə, Naxçıvan iqtisadiyyatı günü-gündən güclənir", – deyən Sanjay Rana muxtar respublikadakı bütün tarixi abidələrin mükəmməl şəkildə bərpa edildiyini də vurğulayıb. Onun ən çox diqqətini çəkən isə "Əlincəqala" tarixi abidəsi olub. Çünki yüksəklikdə yerləşən bu abidənin bərpası hər bir insanda təəccüb doğurur. Bu barədə danışan səfir deyib: – İlk dəfədir ki, Əlincəqalanı ziyarət edirəm. Çox qədim tarixə malik olan qalaya yeni həyat verilib və bərpa edilib. Bura çox maraqlı bir yerdir və turistlərin qədim tarixi, möhtəşəm mənzərəni görməsi üçün ideal bir məkandır. Çox şadam ki, ailəmlə bura gəlmək mənə qismət oldu. Pillələrlə bura qalxmaq insana ayrıca bir zövq verir. Göstərilən diqqətə və xoş qarşılanmaya görə minnətdarlığımı bildirirəm.

**✍ Nail ƏSGƏROV**
**Tural AĞAYEV**



*Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 1972-ci il 15 dekabr tarixli Qərarına əsasən hər il iyunun 5-i Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü kimi qeyd olunur.*

*5 iyun Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günüdür*

# Muxtar respublikada sağlam ekoloji mühit yaradılıb

Azərbaycanda ekologiyaya dövlət səviyyəsində münasibətin göstərilməsi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ötən əsrin 70-ci illərində ulu öndərin rəhbərliyi ilə ekoloji problemlərin həlli istiqamətində mühüm qərarlar qəbul edilmiş, ictimaiyyətin diqqəti ətraf mühitin mühafizəsinə yönəldilmiş, geniş yaşıllaşdırma tədbirləri aparılmışdır. Dahi rəhbər demişdir: ***“Təbii sərvətlərə qayğı ilə yanaşılması, planetin genofondunun qorunması, ekoloji sağlamlıq və digər qlobal problemlər ayrılıqda hər bir dövləti ciddi düşündürsə də, onları yalnız birgə səylərlə həll etmək mümkündür”.*** Ümummilli lider ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra da ekoloji problemlərin həlli diqqətdə saxlanılmış, bu sahədə dövlət siyasətini tənizmləyən zəngin qanunvericilik bazası yaradılmış, “Ekoloji təhlükəsizlik haqqında”, “Ətraf mühitin mühafizəsi haqqında”, “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikasının qanunları qəbul olunmuşdur.

***“Azərbaycanda elə bir sahə yoxdur ki, sürətli inkişaf etməsin...Bütövlükdə ölkəmiz yeniləşir, müasirləşir, zənginləşir, bununla bərabər təbii ki, sürətli inkişaf istər-istəməz ətraf mühitə təsir göstərə bilir. Məhz buna görə də biz çalışırıq ki, öz ekoloji tədbirlərimizi geniş kontekstdə həyata keçirək”,*** – deyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də bu sahənin inkişafına xüsusi diqqət göstərir. Ölkə başçısının rəhbərliyi ilə Azərbaycanda ekoloji məsələlərə dair müşavirələrin keçirilməsi, beynəlxalq ekologiya sərgilərinin təşkil olunması bu sahəyə göstərilən diqqətin real ifadəsidir.

Ulu öndərin muxtar respublikaya rəhbərliyi dövründə əsasını qoyduğu təbiəti mühafizə tədbirləri bu gün Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə muxtar respublikada əlverişli ekoloji mühitin yaradılması məqsədilə dövlət proqramları qəbul edilmiş, ardıcıl tədbirlər görülmüşdür. Muxtar respublika ərazisinin 27 faizdən çoxunun xüsusi mühafizə olunması, fauna ehtiyatlarının qorunması məqsədilə ova qadağaların qoyulması, yaşıllıqların artırılması sahəsində görülən işlər nüfuzlu təşkilat və ekspertlər tərəfindən nümunə kimi qəbul edilir.

Muxtar respublika ərazisində təbii iqlim və torpaq xüsusiyyətləri nəzərə alınaraq yaşıllıqların qorunması və artırılmasına xüsusi diqqət yetirilir. Meşələrin qorunması ilə yanaşı, yeni yaşıllıqların salınması istiqamətində də mühüm işlər görülür. Bu tədbirlərin əsası ulu öndərimizin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işlədiyi dövrdə qoyulmuşdur. Həmin illərdə blokada çətinliklərinə baxmayaraq, ümummilli liderimizin səyi nəticəsində muxtar respublikada iməciliklərin keçirilməsinə başlanılmış, təbiətin, yaşıllığın qorunması və bərpası işlərinə diqqət artırılmışdır. Son illər muxtar respublikada 17 min hektardan çox sahədə yaşıllaşdırma tədbirləri həyata keçirilmiş, yaşıllıqların sahəsi 10 dəfədən çox artmışdır. Muxtar respublikamızda aparılan yaşıllaşdırma tədbirlərində ekoloji əhəmiyyətlə bərabər, iqtisadi səmərəlilik də əsas götürülərək meyvə bağlarının salınması sahəsində də tədbirlər görülmüşdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qəbul etdiyi Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə dövlət proqramlarına uyğun olaraq muxtar respublika ərazisində 4927 hektar sahədə meyvə bağları salınmışdır. Ərazilərin torpaq ehtiyatlarının münbitliyinin qorunması, relyef xüsusiyyətləri nəzərə alınaraq və sudan səmərəli istifadə edilməsi məqsədilə 1100 hektardan çox sahədə damcı yolu ilə suvarma sistemləri qurulmuşdur.



Yaşıllaşdırma tədbirlərinin yalnız kənd təsərrüfatı əkinləri üçün yararsız olan ərazilərdə aparılması torpaqların münbitliyinin bərpa olunmasında da xüsusi amilə çevrilmişdir. Hazırda muxtar respublikanın ümumi ərazisinin 14 faizə qədəri yaşıllıqlarla örtülmüşdür. Müqayisə üçün bildirək ki, ötən əsrin 90-cı illərinin əvvəllərində bu göstərici yalnız 0,6 faizə bərabər idi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Ekoloji təhlükəsizliyin təmin olunmasında meşə fondunun zənginləşdirilməsi mühüm rol oynayır. Son dövrlər muxtar respublikanın artan sənaye potensialı, yeni istehsal sahələrinin yaradılması həyata keçirilən ekoloji siyasətin əsas istiqaməti kimi yaşıllaşdırma tədbirlərinin əhəmiyyətini daha da artırır”.***

Əlverişli ekoloji mühitin yaradılmasında mühüm amillərdən biri də təbiət abidələrinin, bitki və heyvan ehtiyatlarının qorunması və bərpa edilməsidir ki, bu da xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması hesabına mümkündür. Muxtar respublikada bu sahədə də mühüm tədbirlər görülmüş, xüsusi mühafizə olunan təbiət ərazilərinin şəbəkəsi xeyli genişlənmişdir. 1969-cu ildə Ordubad Dövlət Təbiət Yasaqlığı, 2003-cü ildə Akademik Həsən Əliyev adına Ordubad Milli Parkı və Şahbuz Dövlət Təbiət Qoruğu, 2005-ci ildə “Arazboyu” Dövlət Təbiət Yasaqlığı, 2009-cu ildə “Arpaçay” Dövlət Təbiət Yasaqlığı yaradılmışdır. Ölkə rəhbərinin 2009-cu il 25 noyabr tarixli Sərəncamı ilə Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkının yaradılması təbiəti mühafizə ilə yanaşı, ekoturizmin inkişafına da geniş imkanlar açmışdır.

Naxçıvan təbiətinin zənginliyi burada nadir bitki və heyvan növlərinin mövcudluğuna imkan verir. Xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması, ekoloji maarifləndirmə tədbirlərinin keçirilməsi muxtar respublikanın fauna və flora müxtəlifliyinin qorunmasına və zənginləşdirilməsinə öz müsbət təsirini göstərir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 15 avqust tarixli Sərəncamına əsasən ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının flora və faunasına dair iki cilddən ibarət “Qırmızı kitab” çap edilmişdir. Xüsusi gözəlliyi ilə seçilən təbiət guşələri, yüzillik yaşı olan ağaclar, şəlalələr, mağaralar, elmi-tədqiqat, tarixi əhəmiyyətə malik olan obyektlər, təbiət kompleksləri təbiət abidələri kimi qeydiyyata alınaraq pasportlaşdırılmışdır. Müasir dünyamızda turizmin ən çox inkişaf sahəsi olan ekoturizmin və kənd yaşıl turizmin əsasını da məhz bu təbii zənginliklər təşkil edir. Bu baxımdan təbiət abidələrinin qorunması həm də mühüm iqtisadi əhəmiyyətə malikdir.

Muxtar respublika ərazisində mövcud olan təbii zənginliklərin qorunması və səmərəli istifadəsi məqsədilə həyata keçirilən ekoloji tədbirlərin əsasında elmi-tədqiqat və elmi-təcrübi işlər dayanır. AMEA Naxçıvan Bölməsinin Bioresurslar və Təbii Ehtiyatlar institutları ilə birgə elmi ədəbiyyatlar hazırlanmışdır. Elmi-tədqiqat müəssisələri ilə birlikdə ixtisaslı kadrların hazırlanması sahəsində də birgə iş aparılır. Böyük təbiətşünas alim akademik Həsən Əliyev deyirdi ki, təbiətin keşiyində durmaq üçün sözün gücündən istifadə etmək lazımdır. Əgər insan bilsə ki, təbiətə vurduğu ziyan hansı fəlakətlərə səbəb olur, onda bu işləri



heç vaxt görməz. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən bu istiqamətdə də ardıcıl tədbirlər həyata keçirilir, teleradio verilişləri və qəzet materialları hazırlanır, əhali arasında maarifləndirici söhbətlər aparılır.

Görülən işlərin nəticəsi olaraq muxtar respublikanın fauna ehtiyatları müxtəlif növlər üzrə 15-20 faiz artmışdır. Bunlarla yanaşı, muxtar respublika ərazisində 18 dəstə, 51 fəsilə və 142 cinsə daxil olan 241 növ quş, Azərbaycan Respublikasının ərazisində yayılmış 107 məməli heyvan növünün 62 növü məskunlaşmışdır. Həmçinin muxtar respublikada ali sporlu və çılpaqtoxumlu bitkilərin 2895 növünə rast gəlinir.

*Muxtar respublikada fauna ehtiyatlarının qorunması məqsədilə ova qadağaların qoyulması, yaşıllıqların artırılması sahəsində görülən işlər Beynəlxalq Ekoloji təşkilatlar tərəfindən nümunə kimi qəbul edilir. Ümumdünya Vəhşi Təbiəti Mühafizə Fondunun Qafqaz Təmsilçiliyinin muxtar respublikamızda təbiəti mühafizə sahəsində görülən işləri çox yüksək qiymətləndirməsi bunu bir daha təsdiq edir.*

**Naxçıvan Muxtar Respublikası**
**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti**

## İməciliklər mütəşəkkilliklə keçirilib

Muxtar respublikamızda ekoloji problemlərin həlli, ətraf mühitin qorunması, təbiətin zənginləşdirilməsi diqqət mərkəzində saxlanılır. Cari ildə də bu tədbirlər mütəşəkkilliklə davam etdirilir, meyvə bağlarına, yaşıllıq zolaqlarına, gülkarlıq sahələrinə aqrotexniki qulluq göstərilir, yeni yaşıllıqların salınması, ağac və gül kolları əkilməsi qayğısına qalınır.



İyunun 2-də keçirilən iməciliklər də yüksək səviyyədə təşkil olunub. Həmin gün iməciliklərdə 22 min 823 nəfər iştirak edib.

İməcilik zamanı Naxçıvan şəhərinin sakinləri Uzunoba Su Anbarının aşağı hissəsindəki ərazidə yaşıllıqlara aqrotexniki qulluq göstərib, suvarma işləri aparıblar.

Şərur rayonunun sakinləri Danyeri, Xanlıqlar və Aşağı Daşarx kəndlərindəki yaşıllıqlarda, “Gənclər bağı”nda və kənd qəbiristanlıqlarında ağacların diblərini alaq otlarından təmizləyib, budama, suvarma və ağartma işləri keçiriblər.

İməcilik günü babəklilər “Gənclər bağı”nda, Yarımca-Qahab kəndləri arasındakı yolun kənarlarındakı yaşıllıqlara qulluq ediblər.

Bağlar diyarı Ordubad rayonunda da iməciliklər mütəşəkkilliklə keçirilib. Əylis düzündəki üzüm və qızılgül bağlarında, həmçinin “Gənclər bağı”nda aqrotexniki tədbirlər həyata keçirilib, Dəstə və Dırnıs kəndləri arasındakı yolun kənarları alaq otlarından təmizlənib.

Həmin tədbirlər Culfa rayonunun kəndlərindəki yaşıllıq ərazilərində də həyata keçirilib.

Kəngərli rayonunda Naxçıvan-Sədərək magistral yolunun Böyükdüz kəndi hissəsində, Qıvraq qəsəbəsində yol kənarındakı yaşıllıqlarda və “Gənclər bağı”nda ağaclara aqrotexniki qulluq göstərilib, ağartma və suvarma işləri həyata keçirilib.

Şahbuzlular da iməcilik günü həmin işləri görüblər.

Sədərəklilər Naxçıvan-Sədərək magistral yolunun sol hissəsindəki ərazidə, “Gənclər bağı”nda və Sədərək kənd 1 nömrəli tam orta məktəbin həyətində ağacların diblərini alaq otlarından təmizləyib, ağartma və suvarma tədbirləri həyata keçiriblər.

Həmin gün muxtar respublikamızın bütün bölgələrində ahıl vətəndaşların həyətlərində təmizlik, abadlıq işləri aparılıb.

**Xəbərlər şöbəsi**

## “Yaşıllıqlara qulluq” aksiyası “Gənclər bağı”nda başa çatıb

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Gənclər Fondu və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi tərəfindən gənclərin iştirakı ilə Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarındakı “Gənclər bağı”nda “Gənclər ətraf mühitin çirklənməsinə yox deyir” devizi altında “Yaşıllıqlara qulluq” aksiyası keçirilib. Ağaclara aqrotexniki qulluq göstərilib, ətraf ərazilər tullantılardan təmizlənib.

Sonda Naxçıvan şəhərindəki “Gənclər bağı”nda tullantıların yandırıldığı tonqalın ətrafında Naxçıvan Dövlət Texniki Kollecinin tələbəsi Natəvan



İmaməliyeva gənclərin muxtar respublika sakinlərinə müraciətini səsləndirib. Aksiyada, ümumilikdə, 400 nəfərə yaxın gənc iştirak edib.

**Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti**

## Etüd dərsi

*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin təşkilatçılığı ilə AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun Nəbatat bağında mərkəzin rəsm dərnəyi üzvlərinin iştirakı ilə etüd dərsi keçilib.*

5 iyun – Ətraf Mühitin Mühafizəsi Günü ilə bağlı keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı Rasim Rüstəmov və Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin direktoru Namiq Novruzov çıxış edərək bildiriblər ki, dərsin keçilməsində əsas məqsəd yeniyetmə və gənclərin ekoloji maarifləndirilməsi, onların asudə vaxtlarının səmərəli təşkili və təbiət qoynunda rəsm əsərləri çəkmək vərdişlərinə yiyələnməkdir.

Tədbirdə mərkəzin şöbə müdiri, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramov bildirib ki, mərkəzin yeniyetmə və gənclərinin iştirakı ilə təbiət qoynunda etüd dərsi ilk dəfədir, keçirilir. Onların təbiətin gözəlliklərini həvəslə tabloda əks etdirmələrindən görünür ki, belə dərslər yeniyetmə və uşaqların maariflənməsində, təbiətə xoş münasibətində əhəmiyyətli rol oynayır.

Qeyd edək ki, etüd dərsdə 27 istedadlı uşaq və yeniyetmə iştirak edib. Sonra mərkəzin rəsm dərnəyinin üzvləri fərdi qaydada təbiət mənzərələrinin rəsmlərini çəkiblər.

**G.TAHİROVA**

*5 iyun Su Təsərrüfatı və Meliorasiya İşçiləri Günüdür*

# Naxçıvanda müasir meliorasiya və su təsərrüfatı sistemləri qurulub



***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü il 14 may tarixli Sərəncamına əsasən hər il iyunun 5-i ölkəmizdə Su Təsərrüfatı və Meliorasiya İşçiləri Günü kimi qeyd edilir.***

***“Meliorasiya və su təsərrüfatı obyektləri bizim sərvətimizdir və bu sərvətdən səmərəli istifadə etməliyik”***, – deyən ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə meliorasiya və su təsərrüfatı sahəsi böyük inkişaf yolu keçmiş, Azərbaycanda böyük su anbarları, hidroqovşaqlar, nasos stansiyaları tikilib istifadəyə verilmiş, suvarılan torpaqların sahəsi xeyli artmışdır. Ötən əsrin 70-80-ci illərində Naxçıvan Muxtar Respublikasında da yeni meliorasiya və irriqasiya sistemləri yaradılmış, Araz və Arpaçay kimi böyük su anbarları tikilmişdir. 1993-cü ildə ulu öndərin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra isə meliorasiya və su təsərrüfatı sistemində daha geniş islahatlar həyata keçirilmiş, bu sahədə zəngin qanunvericilik bazası yaradılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizdə su təsərrüfatı və meliorasiya sahəsinin inkişafına xüsusi diqqət yetirir. Ölkə başçısının rəhbərliyi ilə bu sahədə mühüm dövlət proqramları təsdiq olunmuş, kənd təsərrüfatının inkişafı, meliorativ tədbirlərin genişləndirilməsinə diqqət artırılmışdır.

Naxçıvan Muxtar Respublikasında da meliorasiya və irriqasiya sistemlərinin təkmilləşdirilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Hər bir ölkədə ərzaq təhlükəsizliyini təmin etmək üçün ilk növbədə kənd təsərrüfatı inkişaf etdirilməlidir. Aydın məsələdir ki, kənd təsərrüfatının inkişafı da müasir meliorasiya və irriqasiya sistemləri olmadan mümkün deyil”.***

Son illər meliorasiya və irriqasiya sistemlərinin normal istismarının təşkili, suvarma şəbəkələrinin genişləndirilməsi, su sistemlərində təmir-bərpa işlərinin görülməsi, suvarılan torpaqların su təminatının və onların meliorativ vəziyyətlərinin yaxşılaşdırılması, sel və daşqın sularına qarşı mübarizə işləri, həmçinin içməli su təminatının yaxşılaşdırılması sahəsində kompleks tədbirlər görülmüşdür. Hazırda muxtar respublikada ümumi həcmi 303,5 milyon kubmetr olan 32 su anbarı vardır.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin fəaliyyəti üçün lazımi şərait yaradılmış, müasir texnikalar alınıb istifadəyə verilmiş, rayon idarələrinin maddi-texniki bazası möhkəmləndirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq fərman və sərəncamları ilə təsdiq edilmiş dövlət proqramlarının suvarma sistemlərinin yenidən qurulması və torpaqların meliorativ vəziyyətlərinin yaxşılaşdırılması, mövcud su resurslarından istifadə imkanlarının genişləndirilməsi və suvarma drenaj şəbəkələrinin inkişaf etdirilməsi sahəsində mühüm tədbirlər həyata keçirilmişdir.

Muxtar respublikada mütərəqqi suvarma sistemlərinin qurulması diqqət mərkəzində saxlanılır. Su itkisinin qarşısını almaq, suvarmanı yaxşılaşdırmaq, torpaq sahələrini yeni əkin dövriyyəsinə daxil etmək məqsədilə yeni qapalı suvarma şəbəkələri tikilir, drenaj xətləri çəkilir. Belə ki, son illər Babək və Culfa rayonlarında 2220, Kəngərli rayonunda isə 1124 hektar sahədə qapalı suvarma şəbəkəsi qurulmuşdur. Hazırda bu işlərin davamı olaraq Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 410 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilir.

Torpaq sahələrinin normalara uyğun suvarma suyu ilə təmin edilməsi əkinçiliyin inkişafına şərait yaradan əsas amillərdəndir. Muxtar respublikada müasir irriqasiya sistemləri qurularaq istifadəyə verilir, torpaqların su təminatı yaxşılaşdırılır. Bütün bunlar, ümumilikdə, muxtar respublika iqtisadiyyatının inkişafına xidmət edir. Həyata keçirilən meliorasiya və su təsərrüfatı tədbirləri yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına səbəb olmuşdur. Belə ki, Ali Məclis Sədrinin tapşırığına uyğun olaraq Uzunoba Su Anbarında yenidənqurma işləri aparılmış, anbardan Kəngərli rayonuna 32,4 kilometr uzunluğunda boru xətti çəkilmiş, yeni nasos stansiyası tikilmiş, nəticədə, 5800 hektar torpaq sahəsi əkin dövriyyəsinə daxil edilmişdir. Böyükdüz və Xok kəndlərinin torpaq sahələrinin suvarma suyu ilə təminatını yaxşılaşdırmaq, su itkilərini aradan qaldırmaq üçün Araz çayındakı nasos stansiyasından 16,6 kilometr uzunluğunda yeni təzyiqli boru xətti çəkilmişdir. Sədərək rayonunda əkinəyararlı torpaqların dayanıqlı suvarma suyu ilə təmin olunması üçün tikilən yeni nasos stansiyası hesabına uzun müddət əkilməyən 1500 hektar torpaq sahəsi də yenidən əkin dövriyyəsinə qatılmışdır.



Suvarılan ərazilərin şoranlaşmasına yol verməmək üçün, birinci növbədə, şoranlaşmanı törədən səbəblərə qarşı tədbirlər görülmüşdür. Əkin sahələrinə suvarma normalarına uyğun olaraq suvarma suyu verilmiş, filtrasiyanı azaltmaq üçün açıq və qapalı drenajlarda, kollektorlarda, kanal və arxlarda mütəmadi olaraq lildən təmizləmə və təmir işləri aparılmış, yeni açıq və qapalı drenajların tikintisi davam etdirilmişdir.

Suvarma və içməli su təminatında qədim hidrotexniki qurğu olan kəhrizlərdən geniş istifadə edilir, onların təmir-bərpası daim diqqət mərkəzində saxlanılır. Kəhrizlərin bərpası su təchizatının yaxşılaşdırılması ilə yanaşı, həm də tariximizin və mədəni irsimizin qorunub saxlanılması baxımından mühüm əhəmiyyət daşıyır. Bu günə qədər muxtar respublikada 120 kəhriz bərpa olunmuşdur. Muxtar respublikada mexaniki suvarma üsulundan da geniş istifadə olunmaqdadır. İkinci suvarma mənbəyi kimi istifadə edilən 101 nasos stansiyası və 824 subartezian quyusu suvarma mövsümündə tam gücü ilə istismar olunur.

Əkin sahələrini və yaşayış məntəqələrini sel sularının zərərli təsirindən qorumaq məqsədilə muxtar respublikanın çay və selovlarında selə qarşı istiqamətləndirici bənd salınır. Bu da torpaqların yuyulmasının və şoranlaşmasının qarşısını almaqla yanaşı, həm də torpaqların münbitliyinin qorunmasına imkan verir. Ötən dövrdə Araz çayı boyunca 54 kilometrdən artıq məsafədə sahilbərkitmə işləri aparılmışdır.

Su təsərrüfatı sahəsində qarşıda duran ən mühüm vəzifələrdən biri də insanları sağlam və ekoloji cəhətdən təmiz içməli su ilə təmin etməkdir. Bu gün muxtar respublikada içməli su və kanalizasiya sisteminin yenidən qurulması istiqamətində kompleks tədbirlər görülür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Naxçıvan Şəhər Su Anbarı və Su Təmizləyici Qurğular Kompleksi, eləcə də Naxçıvan şəhərdaxili su və kanalizasiya şəbəkəsi, Şahbuz və Culfa şəhərlərində içməli su və kanalizasiya sistemləri istifadəyə verilmiş, Şərur şəhərində isə içməli su və kanalizasiya sistemlərinin birinci mərhələsinin açılışı olmuşdur.

Meliorasiya işlərinin yerinə yetirilməsində maşın-mexanizmlərin mühüm əhəmiyyəti vardır. Son illər komitəyə 32 müxtəlif təyinatlı maşın və mexanizm verilmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin kollektivi bundan sonra da meliorasiya və irriqasiya sistemlərinin lazımi səviyyədə istismarının təşkili, suvarılan torpaqların meliorativ vəziyyəti və su təminatının yaxşılaşdırılması sahəsində fəaliyyətini davam etdirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublika Xəstəxanasında fəaliyyət göstərən diabet məktəbinin növbəti təlimi keçirilib.*

# Diabet məktəbinin növbəti təlimi olub

Şahbuz Rayon Mərkəzi Xəstəxanasında keçirilən tədbiri baş həkim İlvin Rzayev açıb.

Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva bildirib ki, muxtar respublikamızda səhiyyə sisteminin inkişafına dövlət qayğısının daha da artırılması, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi, infrastrukturun yenidən qurulması digər sahələr kimi, endokrinologiya sistemində də mühüm irəliləyişlərə şərait yaradıb. Naxçıvan Muxtar Respublika Xəstəxanasının Endokrinologiya şöbəsində müalicə-diaqnostika işinin yaxşılaşdırılması şəkərli diabet xəstələrinin aşkarlanması üçün də şərait yaradıb. 2011-ci ildən Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin laboratoriyasında şəkərli diabet xəstələri üçün qlükozalaşmış hemoqlobinin təyininin tətbiq olunması həmin xəstələrin qanında şəkərin miqdarına daha dəqiq nəzarət etməklə diabet əleyhinə dərman preparatlarının dozasının müəyyən edilməsini daha da asanlaşdırıb. Endokrinologiya şöbəsi artıq beş ildən çoxdur ki, diabet məktəblərinin təlim, məşğələ və treninqlərini təşkil edir.

Naxçıvan Muxtar Respublika Xəstəxanası Endokrinologiya şöbəsinin müdiri Aysel Dünyamalıyeva çıxışında şəkərli diabetin tipləri, diaqnostikası, müalicəsi, bu xəstəliyin erkən və gecikmiş ağırlaşmaları, müalicədə insulinin, düzgün qidalanmanın, fiziki aktivliyin rolundan və digər məsələlərdən bəhs edib.

Təlimdə dinləyiciləri maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Magistraturaya qəbul imtahanının ikinci mərhələsi keçirilib

*İyunun 3-də Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi 2018-2019-cu tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul imtahanının ikinci mərhələsini keçirib.*

İmtahan Bakı, Naxçıvan və Gəncə şəhərlərində, ümumilikdə, 25 imtahan binasında aparılıb, şəffaflığın təmin olunması üçün 81 imtahan rəhbəri və 786 nəzarətçi-müəllim ayrılıb.

Bütün binalarda eyni vaxtda – saat $12^{00}$-da başlayan imtahan 1 saat 30 dəqiqə davam edib.

Muxtar respublikada imtahan Naxçıvan Dövlət Universitetinin Hüquq fakültəsinin binasında keçirilib. Bunun üçün binada 14 imtahan zalı hazırlanıb, 21 nəzarətçi-müəllim və 2 imtahan rəhbəri cəlb edilib. Magistratura pilləsinin müvafiq ixtisaslarında təhsil almaq arzusunda olan 218 bakalavr öz biliklərini sınayıb.

İkinci mərhələdə bakalavrlara seçdikləri proqram üzrə 5-i açıqtipli olmaqla, 50 test tapşırığı təqdim olunub. Hər düzgün cavab 1 balla qiymətləndirilir, səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərmir. İmtahanın nəticələri *www.dim.gov.az* saytında yerləşdiriləcək.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

# Naxçıvan Muxtar Respublikasında ali məktəblərə qəbul imtahanlarının birinci mərhələsi başa çatıb

*Muxtar respublikada təhsilin inkişafı üçün yaradılan şərait və həyata keçirilən ardıcıl tədbirlərin nəticəsidir ki, ali və orta ixtisas məktəblərinə həm sənədvermə, həm də tələbə qəbulunun səviyyəsi ilbəil artır. Ümumtəhsil məktəblərindəki kompüterlərin internet şəbəkəsinə qoşulması isə sənəd qəbulunun vaxtında başa çatmasına imkan verir.*

2018-ci ildə ümumtəhsil məktəblərini bitirən 2803 məzundan 2290-ı, yəni məzunların 81,7 faizi ali məktəblərə sənəd vermişdir. Sənəd verən məzunların 610-u (26,6 faizi) I ixtisas qrupunu, 617-si (26,9 faizi) II ixtisas qrupunu, 761-i (33,2 faizi) III ixtisas qrupunu, 148-i (6,4 faizi) IV ixtisas qrupunu, 154-ü (6,7 faizi) isə V ixtisas qrupunu seçmişlər. Sənəd verən məzunların 1228-i, yəni 53,6 faizini oğlanlar, 1062-si, yəni 46,4 faizini qızlar təşkil etmişdir.

2018-2019-cu tədris ili üçün ali təhsil müəssisələrinə qəbul imtahanlarının birinci mərhələsi – yaz imtahanları artıq başa çatmışdır. Ali təhsil müəssisələrinə I-IV ixtisas qrupları üzrə sənəd qəbulu və yaz imtahanları nəticələrinin təhlili göstərir ki, muxtar respublika məktəbliləri imtahanlarda uğur qazanmışlar. Ali məktəblərə qəbul üçün sənəd vermiş 1578 məzun, yəni Naxçıvan şəhəri üzrə 333, Şərur rayonu üzrə 283, Babək rayonu üzrə 257, Ordubad rayonu üzrə 159, Culfa rayonu üzrə 191, Şahbuz rayonu üzrə 76, Kəngərli rayonu üzrə 98, Sədərək rayonu üzrə 35, Təhsil Nazirliyinə birbaşa tabe məktəblər üzrə 146 məzun uğurlu nəticə göstərmiş, 278 məzun 500-700 intervalında, 80 məzun isə 450-500 intervalında bal toplamışdır.

500-700 arası bal toplayanlar, əsasən, Heydər Əliyev adına tam orta məktəbin, Naxçıvan Qarnizonunun tam orta məktəbinin, Qızlar Liseyinin, Naxçıvan şəhər 5, 8 və 9 nömrəli, Şərur şəhər 1 və 2 nömrəli, İbadulla kənd tam orta, Ordubad şəhər 1 və 3 nömrəli, internat, Culfa şəhər 3 və Yaycı kənd 1 nömrəli, Şahbuz şəhər 1 nömrəli, Kəngərli rayon Qıvraq qəsəbə və Sədərək kənd 1 nömrəli tam orta məktəblərinin məzunları olmuşlar.

Muxtar respublikanın kəndlərində yaradılmış yüksək təhsil şəraitinin nəticəsidir ki, 500-700 intervalında bal toplayan məzunlar içərisində kənd məktəbləri məzunlarının xüsusi çəkisi artmışdır. Məzunları yüksək bal toplamış 110 ümumtəhsil məktəbindən 79-u kənd məktəbidir. Ən yüksək nəticə əldə edən məzunların da böyük bir hissəsi kənd məktəblərinin məzunlarıdır. Belə ki, Şərur rayonu üzrə Ərəbyengicə, Ordubad rayonu üzrə Gənzə, Şahbuz rayonu üzrə Aşağı Qışlaq, Sədərək rayonu üzrə Sədərək kənd 1 nömrəli tam orta məktəblərin məzunları yaşadıqları rayon üzrə ən yüksək nəticəyə nail olmuşlar.

Muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrində yaradılmış yüksək təhsil şəraiti məzunların ixtisas seçimi zamanı bu təhsil müəssisələrinə üstünlük vermələrinə səbəb olur. Bu işdə ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdlərinin muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrində “Açıq qapı” günlərində iştirakı da mühüm əhəmiyyətə malikdir. Bu sahədə həyata keçirilən tədbirlər növbəti qəbul imtahanlarınadək davam etdiriləcək.

Təhsil Nazirliyinin kollektivi öz fəaliyyətini günün tələbləri səviyyəsində quraraq növbəti imtahana qədər şagirdlərlə mütəmadi iş aparacaq, onların hazırlıq səviyyəsini yüksəldərək yay qəbul imtahanında daha yüksək nəticələr əldə etmələrinə nail olacaq.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Türkiyəli sənətçi, rəssam və jurnalist Hülya Sezgin Naxçıvandan yazdı




*Türkiyəli sənətçi, rəssam və jurnalist Hülya Sezginin "Ortaq səs" qəzetində "İki dövlət, bir millət – qardaş Naxçıvan" sərlövhəli məqaləsi dərc edilib.*

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibətilə keçirilən "Naxçıvan – bəşəriyyətin beşiyi" IV Beynəlxalq Rəsm Festivalında iştirak edən Hülya Sezgin muxtar respublikadan aldığı zəngin təəssüratlarını oxucularla bölüşüb. O məqaləsinə belə başlayır: "Naxçıvan və naxçıvanlılar mənə çox doğmadır. Bundan əvvəlki iki festivalda da Naxçıvanda olmuşam. Ona görə də festivalda iştirak edən rəssamlara Naxçıvan haqqında məlumat verirdim. Naxçıvanı əvvəl Azərbaycanın bir rayonu sanırdım. Cahilmişəm. Çünki İqdırla sərhəd olan Naxçıvan Azərbaycandan ayrı düşmüş və onun tərkib hissəsi olan muxtar dövlətdir.... Naxçıvanda kənd təsərrüfatı və sənaye inkişaf edir. Zəngin tarixi-mədəni irsi var. Sahib çıxıb qorumağı da çox yaxşı bilirlər. Hər tərəf tər-təmiz, yaşıllıqlarla və gül-çiçəklə əhatə olunub. Ona görə də bu gözəl diyarı hər kəs gəzmək, görmək istəyir. Turizmin inkişafı isə iqtisadiyyata ciddi töhfə verir. Naxçıvanda bu sahədə mühüm işlər görülür, malik olduğu zəngin mədəniyyət təbliğ edilir, sənətə və sənətkara qiymət verilir, gözəl festivallar keçirilir. Düşünürəm ki, Türkiyənin turizm şirkətləri öz marşrutlarına Naxçıvanı əlavə etməlidirlər".

Naxçıvanın son zamanlar böyük iqtisadi və mədəni yüksəliş əldə etdiyini yazan müəllif bu uğurların yüksək səviyyəli beynəlxalq tədbir və festivalların keçirilməsi sahəsində özünü göstərdiyini qeyd edib: "Ona görə də bu ənənəvi rəsm festivalına maraq daha da artır. Bu il festivalda 14 ölkədən 60-dan artıq rəssam iştirak edirdi".

Hülya Sezgin Naxçıvanda sənətkarlığın, eləcə də rəssamlığın böyük qayğı ilə əhatə olunduğunu vurğulayaraq yazıb: "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri hörmətli Vasif Talıbov sənətə və sənətçilərə böyük qiymət verir, Azərbaycana xas mədəni və milli dəyərlərin qorunub yaşadılması istiqamətində sistemli iş aparır. Ona görə də Naxçıvanda son illər görkəmli fırça ustası Bəhruz Kəngərlinin davamçıları olan onlarla istedadlı gənc rəssam yetişib.

Naxçıvanın tarixi binaları ilə yanaşı, yeni tikililəri də estetik görünüşə malikdir. Yəni ruhsuz beton yığını deyil. Sənətə, elmə, idmana çox mühüm əhəmiyyət verirlər. Görkəmli teatrları, kitabxanaları, idman obyektləri, şahmat mərkəzi, konservatoriyası, müxtəlif ixtisaslar üzrə təhsil verən universitetləri var. Gələcəyin sənət adamları, xüsusilə rəssamlar bu ali təhsil ocaqlarında yetişir. İki gün müddətində Naxçıvanın çox yerini gəzdik, amma bu qədim diyarın gözəlliklərindən doymadıq. Möhtəşəm sənət əsəri olan Möminə xatın türbəsi sanki Naxçıvanın Tac-Mahalıdır. Xalça Muzeyində çox dəyərli xalçalar saxlanır və toxunur. Burada xalçaçı-rəssamlar da var. Xalça toxumaqla və muncuqla tablo yaradılması böyük marağıma səbəb oldu".

Müəllif yazır: "Keçən festivalda açılışı olan Bəhruz Kəngərli adına Rəssamlar Parkını gəzdik. Azərbaycanın ən məşhur realist rəssamı olan Bəhruz Kəngərli öz əsərlərini sataraq əldə etdiyi qazancı yetim uşaqların oxumasına xərcləyən xalq qəhrəmanıdır. Onun əsərlərində Naxçıvanın tarixini oxumaq mümkündür. Məhz Bəhruz Kəngərlinin əsərindən yola çıxılaraq Nuh Peyğəmbərin türbəsi bərpa olunmuşdur".

Hülya Sezgin Naxçıvan mətbəxinə, xüsusilə mürəbbələrinə heyran qaldığını da vurğulayır: "Burada hər şey yerli və təbiidir. Geni dəyişilmiş toxuma yer yoxdur!.. Çox ləzzətli və məşhur mürəbbələri var. Xüsusilə də cəviz mürəbbəsinin dadına doyum yoxdu".

"Çox gözəl qaydaları var. Yolda qarşıdan-qarşıya geçərkən Türkiyədən fərqli olaraq avtomobillər piyadaya yol verir", – qeydlərini paylaşan müəllif daha sonra əlavə edir ki, "dörd il əvvəl festivalın Möminə xatın türbəsinin ətrafındakı açılış mərasimində milli geyimli gənc qız "Sarı gəlin" mahnısının sədaları altında rəqs etdi. Çox duyğulanmışdım. Bu il həmin səhnəni canlandıran bir əsər yaratdım. Naxçıvanın hər tərəfi güllərlə əhatə olunduğu üçün də rəsmin alt hissəsini güllərlə bəzədim".

Məqaləni səmimi notlarla bitirən Hülya Sezgin yazır: "Bu qədər çox rəssam qrupunu bu qədər möhtəşəm qonaq etmək, onların qayğısına qalmaq asan məsələ deyil. Bunun arxasında böyük əmək, sədaqət və sevgi durur. Bütün bunlara görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq edirəm... Biz Naxçıvanı dostca, qardaşca gəzib gördük, gözəl rəsmlər çəkdik… Sənət dostluqdur, sənət sülhdür, sənət bəşəridir…"

# Amerika Birləşmiş Ştatlarının vətəndaşı Erik Olson: *"Naxçıvan Azərbaycanın mədəniyyət paytaxtıdır"*

*Muxtar respublikaya səfər edən turistlər ölkələrinə qayıtdıqdan sonra sosial şəbəkələrdə Naxçıvan haqqında xoş təəssüratlar paylaşırlar. Bu ilin may ayında Naxçıvan Muxtar Respublikasında səfərdə olmuş Amerika Birləşmiş Ştatlarının vətəndaşı Erik Olson ölkəsinə qayıtdıqdan sonra səyahətçilərin istifadə etdiyi "TripAdvisor" internet şəbəkəsində və "Facebook" sosial şəbəkəsindəki səhifəsində Naxçıvan barədə məlumatlar paylaşmışdır.*

"TripAdvisor" internet şəbəkəsindəki "Naxçıvan inanılmaz dərəcədə gözəl bir məkandır" paylaşımında Erik Olson yazır: "Çoxlu sayda insanlar Naxçıvana səfər etməlidir. Son bir-iki ildə səfər etdiyim ərazilər içərisində Naxçıvan ən gözəlidir. Əminəm ki, Bakı və digər rayonlar ilə müqayisədə Naxçıvan tarixi əraziləri ilə Azərbaycanın ləl-cəvahiratıdır. Bələdçim Emil Paşalı, həqiqətən, ərazinin tarixini çox əla bilir və yaxşı yoldaşlıq etməyi bacarır. Naxçıvana səfər etsəniz, bu bələdçilər sizə biletlərin alınmasında və mehmanxanalarda yerləşməkdə də hərtərəfli köməklik göstərəcəklər. Naxçıvanda olmağı hər kəsə tövsiyə edirəm!"



"Nakhchivan Is Incredible!"

May 30, 2018

A TripAdvisor Member (3) Reviews

More people need to visit Nakchivan. This is one of my favorite places I've been to in the last couple years. It's definitely the jewel of Azerbaijan with many more historic sites to see than Baku or "mainland" Azerbaijan. Emil is a fantastic guide, he really knows the history and is very friendly and accommodating. They can help set everything up from internal flights to accommodations. Highly recommend!




Erik Olson "Facebook" sosial şəbəkəsində isə aşağıdakı fikirlərini paylaşmışdır: "Son bir neçə günü Naxçıvan Muxtar Respublikasında keçirdim. Naxçıvan 1990-cı ildə – 70 il Sovet hakimiyyətinin idarəçiliyindən sonra Azərbaycanın müstəqillik hərəkatının mərkəzinə çevrilmişdi. Sovet İttifaqının dağılmasından sonra Ermənistan və Azərbaycan arasında müharibə baş verdi. Hazırda Naxçıvanın Ermənistan, İran və Türkiyə ilə sərhədləri var. Mən Naxçıvan şəhərindəki gözəl "Təbriz" otelində qaldım. Bələdçim məni ərazi ilə tanış etdi. Naxçıvan, həqiqətən, Azərbaycanın mədəniyyət paytaxtıdır! Qafqaz regionunun isə ən maraqlı tarixi ərazisidir. Əgər kimsə Naxçıvana səfər etmək istəsə, bələdçim Emil Paşalı onun üçün Naxçıvan şəhərinə turlar təşkil edə bilər. Çünki onun işlədiyi "Natiq Travel" şirkəti ən yaxşı turizm şirkətidir".

**Nuhçıxan İnformasiya Agentliyi**

*Dini ziyarətgahlarımız*

# Asnı piri

***Doğma diyarımız islami dəyərləri özündə qoruyub yaşadan türk-islam mədəniyyəti nümunələri, tarixi-dini abidələrlə zəngindir. Kəngərli rayonunun qədim yaşayış məskənlərindən olan Qarabağlar kəndi də əsrlərə şahidlik edən abidələri ilə özünə şöhrət qazanmış yurd yerlərimizdəndir. Burada hələ eramızdan əvvəl II-I minilliklərə aid edilən və bu günümüzə qədər qorunub yaşadılan qədim tikililər tariximizin izlərini özündə saxlayan daş kitabələrdir. Qarabağlar kəndindəki Pələng qayası dağının cənub ətəklərində yerləşən, əsrlərdən bəri insanların inanc yerinə, müqəddəs ziyarətgahına çevrilən belə tikililərdən biri də Asnı piridir.***

Burada olarkən kəndin ziyalı ağsaqqalarından Nahas Səfərovla söhbət zamanı dedi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində qədim diyarımızda tarixi abidələrin mühafizəsi və tədqiqi, maddi-mənəvi irsimizin qorunaraq gələcək nəsillərə çatdırılması istiqamətində əhəmiyyətli işlər görülüb. Qarabağlar kəndindəki orta əsrlərdən qalma digər memarlıq abidələri ilə birgə Asnı pirində də yenidənqurma işləri aparılıb. Əvvəllər pirin yaxınlığında möhrədən tikilmiş dördkünc formalı köhnə tikili hazırda monumental quruluşa malik memarlıq abidəsilə əvəz olunub. Binanın künc divarları uca çıxıntılarla hörülərək milli naxışlarla bəzədilib. Burada zəvvarlar üçün mədəni-məişət şəraiti yaradılıb, həyətyanı sahədə geniş abadlıq işləri aparılıb, yaşıllıq zolaqları salınıb, oturacaqlar quraşdırılıb. Pirin yaxınlığında sıldırım qayaların arasından çıxan gursulu bulaq da insanların inanc yerinə çevrilib və xalq tərəfindən müqəddəsləşdirilib.

Asnı pirinə, adətən, yenicə nikah bağlamış gənc ailələr ziyarətə gəlir, burada qurbanlar kəsirlər. Özləri ilə bulaq suyundan aparır, xeyir-bərəkətli və xoşbəxt gələcək diləyilə həmin sudan xəmir yoğurub çörək bişirirlər. Bulağın ətrafındakı ağaclar da insanlar tərəfindən müqəddəs hesab edilir, orada yabanı qaraçalı, həmərsin, yemişan kolları ilə bərabər, cır armud, alma, alça kimi meyvə ağacları bitib. Sonradan burada su arxı boyunca söyüd və iydə ağacları da əkilib.

Pirin içərisində orta əsrlərə aid iki qəbir, qəbirlərdəki sinə daşlarının üzərində isə ərəb əlifbası ilə yazılı kitabələr vardır. Kitabələrə əsasən qəbir abidələri XIV əsrə aid edilir. Lakin pirin tarixi Azərbaycan türklərinin dağ, su və ağac inancı ilə bağlı olub daha qədim dövrə gedib çıxır.

Pirin tarixi haqqında da kənd ağsaqqallarının söhbətləri maraqlıdır. Nahas Səfərov deyir ki, pirlə bağlı xalq arasında əfsanələr söylənilir. Əfsanələrin birində deyilir ki, Asnı dağındakı bulağın suyu Göyçə gölünün suları ilə əlaqədardır. Keçmiş vaxtlarda uzaq Göyçə mahalından gəlmiş bir tacir karvan ilə daşduz aparmaq üçün Qalaçıq şəhərindəki (indiki Qarabağlar kəndi) bazarda dayanmalı olur. O, bir şəxsin əlində özünün əvvəllər itirdiyi naxışlı əlağacını görərək tanıyır və sevincək on il əvvəl başına gəlmiş bir hadisəni xatırlayır. Bir zamanlar Göyçə gölündən qayıqla keçən zaman qəflətən yaranan tufan nəticəsində qayıq çevrilir və tacir sudan çətinliklə üzüb çıxır. O, hadisədən sonra suda batan mallarından çox, qaraağacdan yonulmuş naxışlı əlağacının suda batmasına heyifsilənir. Tacir əlağacını özününkü olduğunu sübut edib qalaçıqlı şəxsdən almaq üçün yivli baş hissəsini burub açır və içərisində gizlətdiyi qızıl sikkələri yerə tökür. Camaat təəccüblənərək tacirin əlağacı ilə qızıllarını özünə qaytarır. Tacir isə halallıq kimi qızılların yarısını itmiş əlağacını tapan şəxsə verərək onu haradan tapdığını soruşur. Ağacı tapan şəxs Allaha şükür edərək, əlağacını təpədəki Asnı bulağından tapdığını söyləyir. Həmin əhvalatı eşidən qalaçıqlılar (qarabağlarlılar) Asnı bulağını Allahın möcüzəsi kimi müqəddəs bilib, oranı ziyarətgaha çevirirlər. Tacir isə qalan qızılları xərcləyərək Asnı bulağında min baş erkək qurbanlıq quzu kəsdirməklə əhaliyə ehsan verir.



Yurdumuzun bütün bölgələrində özündə yerli türk ənənələrini saxlamaqla yanaşı, İslami xarakter daşıyan, türk-islam mədəniyyəti abidələrimiz, dini inanc yerlərimiz var. Onların hər biri xalqımızın etnik tarixinin, maddi və mənəvi dəyərlərinin, qədim dünyagörüşünün öyrənilməsində mühüm əhəmiyyət kəsb edir.

Ulularımızın fəlsəfi düşüncəsində dərin iz buraxmış bu inanclar əhalinin mənəvi həyatının tam mənzərəsini təsəvvür etməyə imkan verir. Xalqımızın bu mənəvi etiqadları göstərir ki, əsrlərin sınağından keçmiş belə qədim inanclarla bağlı olan adətlər xalqımız tərəfindən unudulmayıb, ulularımızdan qalan belə dəyərlər bu günədək qorunub saxlanılıb.

**✍ Gülcamal TAHİROVA**

***İtmişdir***

Şərur rayonunun Zeyvə kənd sakini Əliyev Arif Müzəffər oğlunun adına verilmiş JN-1755 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 411